**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin “Naxçıvan Muxtar Respublikasında uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin inzibati və xidmətedici heyətinin nümunəvi ştatları”nın təsdiq edilməsi barədə” 2022-ci il 25 fevral tarixli 45 nömrəli, “Yararlılıq müddəti bitməmiş dərman vasitələrinin geri qaytarılması və əhaliyə dərman vasitələrinin buraxılması Qaydaları”nın təsdiq edilməsi barədə” 2022-ci il 4 mart tarixli 51 nömrəli, “Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən teatrların “Akademik” və “Milli” statuslarına təqdim olunması Qaydası”nın təsdiq edilməsi haqqında” 2022-ci il 17 mart tarixli 69 nömrəli, “Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin mühafizə hissələri tərəfindən göstərilən xidmətlərin tariflərinin təsdiq edilməsi barədə” 2022-ci il 5 may tarixli 114 nömrəli, “Naxçıvan Muxtar Respublikasının dövlət səhiyyə müəssisələrində çalışan işçilərin geyim formalarının təsvirləri”nin təsdiq edilməsi haqqında” 2022-ci il 17 iyun tarixli 135 nömrəli qərarlarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 134-cü maddəsinin IV hissəsini və Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 39-cu maddəsinin I hissəsinin yeddinci abzasını rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aşağıdakı qərarları ləğv edilsin:

1.1. “Naxçıvan Muxtar Respublikasında uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin inzibati və xidmətedici heyətinin nümunəvi ştatları”nın təsdiq edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 25 fevral tarixli 45 nömrəli Qərarı;

1.2. “Yararlılıq müddəti bitməmiş dərman vasitələrinin geri qaytarılması və əhaliyə dərman vasitələrinin buraxılması Qaydaları”nın təsdiq edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 4 mart tarixli 51 nömrəli Qərarı;

1.3. “Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən teatrların “Akademik” və “Milli” statuslarına təqdim olunması Qaydası”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 17 mart tarixli 69 nömrəli Qərarı;

1.4. “Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin mühafizə hissələri tərəfindən göstərilən xidmətlərin tariflərinin təsdiq edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 5 may tarixli 114 nömrəli Qərarı;

1.5. “Naxçıvan Muxtar Respublikasının dövlət səhiyyə müəssisələrində çalışan işçilərin geyim formalarının təsvirləri”nin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 17 iyun tarixli 135 nömrəli Qərarı.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, “5” mart 2025-ci il

№ 8